# Zəngilanda ermənilərin törətdiyi ekoloji terror

***“Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır – vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur”. Bunu Prezident İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən demişdir.***



Erməni qəsbkarları Qarabağda, o cümlədən, Zəngilanda illər ərzində yeraltı və yerüstü sərvətlərimizi talan etməklə, təbiətin “ağciyəri” hesab edilən meşələrimizi, təbii abidələri məhv etməklə, su ehtiyatlarını çirkləndirməklə, flora və faunaya zərər yetirməklə ekosistemin mühüm halqalarını, qida zəncirini dağıtmaqla tapdaq altında olan ərazilərimizi bərbad günə qoymuşdular. Zəngilan ərazisində yerləşən daxili suların mikroflora və mikrofaunasını tamamilə məhv edib, suları ağır metallarla çirkləndirib, istifadəyə yararsız hala salıb. Bir sözlə, Zəngilanın təbiəti viran qoyulub. Ermənistanın təcavüzü nəticəsində bu ərazilərin ekologiyasına vurulan ziyanın bərpası üçün hələ çox zaman tələb olunacaq.

Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub – Bəsitçay Təbiət Qoruğu. Həmin qoruğun böyük hissəsi məhv edilib. Cənab Prezident bildirib ki, Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini, eyni zamanda, yandırılmış ağacları da görmüşəm.

Bəsitçay Təbiət Qoruğunun bərpasına başlanılmışdır. Dövlət başçımız Zəfərdən sonra ilk dəfə Zəngilanda olanda orada ağaclar əkmişdir.

Eyni zamanda, Ermənistan Zəngilandakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdir. Buradakı Vejnəli qızıl yatağı vəhşicəsinə istismar olunmuşdur. Oradan qanunsuz çıxarılan qızıl xaricə aparılıb satılmışdır.

Cənab Prezident bəyan edib ki, bir cinayət də cavabsız qalmayacaq. Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.

Ermənistandan gələn Oxçuçay Zəngilan rayonundan keçib, Araz çayına tökülür. İllərdir ki, mis kombinatının bütün axıntıları təmizlənmədən Oxçuçaya ötürülürdü. Bu, böyük cinayətdir, ekoloji terrordur.

Dövlət başçımız demişdir: “Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox”.

Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür. Yanğınlar zamanı heyvanat aləminin bir qismi məhv olmuş, digər qismi isə qonşu areallara qaçaraq özlərinə sığınacaq tapmışdır.

Artıq bu terror davam etməyəcək. Çünki, 2020-ci il oktyabrın 20-də Zəngilan müzəffər ordumuz tərəfindən düşmən tapdağından azad edilib. İşğaldan azad olunan ərazilər də ölkəmizin digər guşələri kimi günü-gündən inkişaf edəcək, təbiəti çiçəklənəcək, ekoloji tarazlıq bərpa olunacaq, cəmiyyətin davamlı inkişafı təmin ediləcək.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 13 may.- S.9.